2022.- 28 may. S. 18.

Ədəbiyyat qəzeti

## Azərbaycan Yazıçılar Birliyində kitab təqdimatı

Mayın 26-da Azərbaycan Yazıçılar Birliyində tanınmış şair, filologiya üzrə fəlsəfə doktoru Adilə Nəzərin "Bir ovuc gün işığı" adlı yeni şeirlər kitabının təqdimatı keçirilib. Tədbirdə AYB-nin üzvləri, şair və yazıçılar, millət vəkilləri, oxucular və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbiri giriş sözü ilə Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı-publisist Elçin Hüseynbəyli açıb. Çıxış üçün ilk söz Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərova verilib. Akademik Adilə Nəzərin yaradıcılığının xüsusiyyətləri barədə geniş məruzə edib və qeyd edib ki, Adilə xanımın şeirlərində neosufizm və turançılıq ideyaları birləşir.



İkinci məruzəni tanınmış ədəbi tənqidçi Əsəd Cahangir edib, o, Adilə Nəzərin şeirlərinin alt qatındakı zaman, məkan və o ikisinin ortasında dayanan insan fəlsəfəsindən bəhs edib.

Tədbirin aparıcısı şair Yusif Nəğməkar şairin şeirlərinin ideya-məzmunundakı yeniliklərdən məlumat verdikdən sonra çıxış və təbrik üçün iştirakçılara söz verilib.

Əməkdar incəsənət xadimi, bəstəkar Gövhər Həsənzadə Adilə Nəzərin yaradıcılığı haqqında fikirlərini bölüşüb və onu təbrik edib.

Daha sonra şair-tərcüməçi, ADA Universitetinin professoru Nəriman Qasımoğlu, yazıçı-tərcüməçi, professor Akif Abbasov, şair-tərcüməçi, professor Xaqani Qayıblı, yazıçı-jurnalist Zemfira Məhərrəmli, yazıçı, publisist İradə Tuncay, yazıçı Səfər Alışarlı, yazıçı Ələbbas Bağırov, yazıçı, tərcüməçi Təranə Məmməd, şair, tərcüməçi İbrahim İlyaslı, yazıçı Həcər Paşayeva, şairlərdən Ayaz Arabaçı, İlqar Türkoğlu, Kəmaləddin Qədim, Qalib Nuri Arif və Ehtiram İlham kitabda Zəfər gününün coşğusunu, Azərbaycan əsgərinin cəsurluğunu, şəhidlərimizin qəhrəmanlığını və fədakarlığını əks etdirən şeirləri xüsusilə vurğulayıblar, belə ki, kitabda onlarla şəhidimizin keçdiyi döyüş yolu, igidliyi təsvir olunub. Tədbirdə bölgələrdən gələn qonaqlar da iştirak edib. Qəbələdən Füzuli Səddinov, Zaqataladan Adilə Aslanova, Neftçaladan Ələkbər Zahidov və başqa ziyalılar çıxış edərək, müəllifin yaradıcılığındakı vətənpərvər şeirlərin gənclərdə igidliyə, cəsurluğa çağırışını, vətənpərvər ruhun inkişafına təsirini, fəlsəfi şeirlərinin Tanrıya - İlahi ədalətə inam yaratmasını, vicdanlı, mərhəmətli olmağa dəvətini, sevgi şeirlərinin etibara, vəfaya səsləməsini vurğulayıblar, ümumilikdə kitab barədə müsbət fikirlərini bildiriblər.

Rəssam Sehran Allahverdi və Şəmsəddin Böyükdüzlü Adilə Nəzərin yağlı boya ilə işlədikləri portretini ona hədiyyə ediblər. Əkbər Bağırov, Aydın Qacar, Kazım Səfəroğlu və başqaları müəllifin yaradıcılığı barədə öz təəssüratlarını bölüşüblər və müəllifə yaradıcılıq uğurları diləyiblər.

Tanınmış qiraətçi Müşfiqə Baxşiyeva şairin şeirini qiraət edib.

Çıxışlar sonunda müəllif öz şeirlərindən nümunələr səsləndirib, iştirakçılara təşəkkür edib və qonaqlar üçün kitabını imzalayıb.